# Dost həm də şad gündə tanınır

## Macarıstan şirkətləri Cəbrayılın Soltanlı kəndinin yenidən qurulmasında yaxından iştirak edir

**Yola saldığımız 2024-cü ildə Azərbaycanın neft-qaz bazarına daha bir enerji iştirakçısı daxil oldu. Bu, Macarıstanın "MVM Group" şirkətidir.**

Ötən ilin üçüncü rübündə "MVM Group" təkcə Xəzərin Azərbaycan sektorunda deyil, dünyada ən iri təbii qaz-kondensat yataqlarından olan "Şahdəniz" üzrə Hasilatın Pay Bölgüsü Sazişinə qoşuldu. Bu xüsusda dekabr ayında SOCAR-da keçirilən görüşdə sözügedən iki şirkət arasında uğurla davam edən əməkdaşlıqdan məmnunluq ifadə edildi.

Ümumiyyətlə, son illər Macarıstanın enerji şirkətlərinin neft, qaz və ixrac layihələrimizdə iştirakı genişlənir. Məsələn, 2019-cu ilin noyabr ayında bu ölkənin MOL şirkəti "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku və Azərbaycan neftinin əsas ixrac xətti - Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərində pay almaq üçün saziş imzaladı. Beləliklə, "Mol Group" az sonra AÇG-nin səhmlərinin 9,57, BTC-nin səhmlərinin isə 8,9 faizini əldə etdi.

Keçən ilin aprel ayında "MOL Azerbaijan"ın icraçı direktoru Attila Somfai Bakıda keçirilən Azərbaycan-Macarıstan Hökumətlərarası Komissiyasının 10-cu iclası zamanı bildirib ki, MOL neft-qaz şirkətinin ölkəmizin enerji sektoruna sərmayələri 2 milyard dollara çatıb. Bununla belə, şirkət investisiyaların həcminin və uzunmüddətli əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Əməkdaşlıq uğurla davam edir. 2024-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 30 illiyi qeyd olunan zaman SOCAR və "MOL Hungarian Oil and Gas" şirkəti arasında "Şamaxı-Qobustan sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilat haqqında" Anlaşma Memorandumu imzalandı. Anlaşma memorandumuna əsasən, tərəflər Azərbaycanın karbohidrogen hasilatının daha da artırılması istiqamətində əməkdaşlıq edəcəklər. Sənədin imzalanması SOCAR-ın prezidenti Rövşən Nəcəfin "MOL Hungarian Oil and Gas" şirkətinin sədri və baş icraçı direktoru Zsolt Hernadi ilə keçirdiyi görüşdə baş tutdu.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan-Macarıstan enerji əməkdaşlığı və tərəfdaşlığı getdikcə daha geniş miqyas alır. 2023-cü il aprelin 25-də Sofiyada baş tutan "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimini xatırlayaq.

Əlaqələr indi həm də bərpaolunan enerji sahəsini əhatə edir. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarest şəhərində imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" artıq gerçəkləşdirilməkdədir.

Əslində, Azərbaycan və Macarıstan arasındakı dostluq münasibətləri iqtisadiyyatın bir çox sahəsində yeni işgüzar əlaqələr qurmağa imkan verir. Son illər turizm, təhsil, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq genişlənir. Bu da göstərir ki, qeyri-neft-qaz sektorunda əlaqələrin daha da inkişafı üçün potensial var.



Cari ildən Macarıstanın iki əczaçılıq şirkətinin də Azərbaycanda dərman istehsalına başlayacağı nəzərdə tutulub. Bu müəssisələrdə 90 adda dərman istehsalı planlaşdırılır.

Azərbaycan-Macarıstan əlaqələrinin səviyyəsini göstərən daha bir aydın misal: Macarıstan şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında fəal iştirak edir. Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulması macar şirkətləri tərəfindən həyata keçirilir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 11 yanvar (№ 5).- S.6.